*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2010-cu il 23 iyul tarixli 15/58-14 saylı Qərarı ilə təsdiq edilmiş, 2019-cu il 15 mart tarixli 1/2 saylı, 2022-ci il 4 avqust tarixli 4/14 saylı və 2024-cü il 27 iyun tarixli 14/50 saylı qərarları ilə dəyişikliklər edilmişdir.*

# Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə media vasitəsi ilə seçkiqabağı təşviqatın aparılması qaydaları haqqında

# T Ə L İ M A T

## 1. Ümumi müddəalar

**1.1.** Bu Təlimat Azərbaycan Respublikasının Milli Məclisinə (bundan sonra – Milli Məclis) seçkilərdə media vasitəsindən istifadə etməklə seçkiqabağı təşviqatın aparılması qaydalarını müəyyən edir.

Təlimat Azərbaycan Respublikası Konstitusiyasının 47-ci maddəsinin, Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi), "Media haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun hazırlanmışdır.

**1.2.** Təlimatda istifadə olunan bəzi anlayışların izahı:

**1.2.1. qeydə alınmış namizəd** – Milli Məclisə seçilmək üçün Seçki Məcəlləsinə uyğun qeydə alınmış şəxs;

**1.2.2. siyasi partiyaların bloku** – Milli Məclisə seçkilərdə birgə iştirak etmək üçün iki və ya daha çox siyasi partiyanın yaratdığı qurum;

**1.2.3. televiziya və radio ilə seçkiqabağı təşviqat –** seçiciləri hər hansı namizədin lehinə səs verməyə (səs verməməyə) təbliğ etmək məqsədilə qanunvericiliklə müəyyən olunmuş formada məlumatların televiziya və radio proqramları vasitəsi ilə yayımlanması;

**1.2.4. dövri nəşrlər vasitəsilə seçkiqabağı təşviqat –** seçiciləri hər hansı namizədin lehinə səs verməyə (səs verməməyə) çağırmaq məqsədilə qanunvericiliklə müəyyən olunmuş formada məlumatların dövri nəşrlər vasitəsilə yayılması;

**1.2.5. media vasitəsi ilə aparılan seçkiqabağı təşviqatın növləri –** çıxış, müsahibə, mətbuat konfransı, açıq müzakirə, debat, "dəyirmi masa", namizəd haqqında televiziya və radio verilişlərinin, videofilmlərin (bədii filmlər istisna olmaqla) göstərilməsi;

**1.2.6. çıxış –** seçkiqabağı proqram və platformanın televiziya və radio proqramları vasitəsilə seçicilərə açıqlanması;

**1.2.7. müsahibə –** qeydə alınmış namizədlərin, onların səlahiyyətli nümayəndələrinin və vəkil edilmiş şəxslərinin, namizədi qeydə alınmış siyasi partiyaların, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələrinin və vəkil edilmiş şəxslərinin media subyektlərinin nümayəndələri ilə görüşləri zamanı

onlara verilən sualların cavablandırılması;

**1.2.8. mətbuat konfransı –** qeydə alınmış namizədlərin, namizədləri qeydə alınmış siyasi partiyaların, siyasi partiyaların bloklarının, onların səlahiyyətli nümayəndələrinin və vəkil edilmiş şəxslərinin media vasitəsi ilə suallara cavablar daxil olmaqla, namizədlərin seçkiqabağı proqramının izah edilməsi;

**1.2.9. açıq müzakirə –** seçkiqabağı proqram və platformanın digər subyektlərlə müzakirə edilməsi;

**1.2.10. debat –** iki və ya daha çox qeydə alınmış namizədin, habelə namizədləri qeydə alınmış siyasi partiyaların, siyasi partiyalar bloklarının adından onların buna vəkil edilmiş nümayəndələrinin seçkiqabağı proqramları ilə əlaqədar fikir mübadiləsi;

**1.2.11. "dəyirmi masa" –** seçkiqabağı təşviqat tədbirləri çərçivəsində qeydə alınmış namizədlər, namizədləri qeydə alınmış siyasi partiyaların, siyasi partiyalar bloklarının nümayəndələri arasında media subyektlərinin nümayəndələri, televiziya tamaşaçıları, radio dinləyicilərinin sual-cavabları da daxil olmaqla fikir mübadiləsi;

## 2. Seçkiqabağı təşviqatın müddəti və subyektləri:

**2.1.** Milli Məclisə seçkilərlə bağlı seçkiqabağı təşviqat səsvermə gününə 23 gün qalmış başlanır və səsvermənin başlanmasına 24 saat qalmış dayandırılır. Səsvermə günü və ondan əvvəlki gün saat 8:00-dan başlayaraq hər hansı formada seçkiqabağı təşviqatın aparılması qadağandır.

**2.2.** Seçkiqabağı təşviqat aparmaq hüququna malik olan subyektlər aşağıdakılardır:

**2.2.1.** qeydə alınmış namizədlər;

**2.2.2.** namizədləri qeydə alınmış siyasi partiyalar;

**2.2.3.** namizədləri qeydə alınmış siyasi partiyaların blokları;

**2.2.4.** bu Təlimatın 2.2.1, 2.2.2 və 2.2.3-cü bəndlərində göstərilən subyektlərin adından seçkiqabağı təşviqat onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri tərəfindən onlara verilmiş səlahiyyətlər daxilində aparıla bilər.

**Qeyd:** *qeydə alınmış namizədlərin, namizədləri qeydə alınmış siyasi partiyaların, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri seçkiqabağı təşviqatda iştirak edərkən onlara verilmiş səlahiyyətlər həddində fəaliyyət göstərməli və bu səlahiyyətlərin icrasına heç bir maneə olmamalıdır.*

2.3. Seçkiqabağı təşviqat prosesində mülkiyyət növünə və yayım imkanlarına görə iştirakı nəzərdə tutulan televiziya və radio yayımçıları aşağıdakılardır:

**2.3.1. ictimai** televiziya və radio yayımçıları – Azərbaycan Respublikası ərazisinin yarısına, yarısından çoxuna yayımlanan ictimai televiziya və radio yayımçıları və onların müvafiq bölmələri, habelə Azərbaycan Respublikası ərazisinin yarısından az hissəsinə yayımlanan ictimai televiziya və radio yayımçıları;

**2.3.2. özəl televiziya və radio yayımçıları –** təsisçiləri fiziki və hüquqi

şəxslər olan və xüsusi mülkiyyətə əsaslanan televiziya və radio yayımçıları;

**2.3.3. bələdiyyə televiziya və radio yayımçıları –** təsisçiləri bələdiyyə orqanları olan və ən azı müvafiq bələdiyyə ərazisində yayımlanan televiziya və radio yayımçıları.

**2.4. Seçkiqabağı təşviqat prosesində mülkiyyət növünə və yayım imkanlarına görə iştirakı nəzərdə tutulan dövri nəşrlər aşağıdakılardır:**

**2.4.1. dövlət dövri nəşrləri –** təsisçiləri dövlət orqanları, təşkilatları, idarələri olan və ya dövlət büdcəsindən maliyyələşdirilən, Azərbaycan Respublikası ərazisinin yarısına, yarısından çoxuna, yaxud yarısından az hissəsinə yayılan, həftədə azı bir dəfə çıxan dövri nəşrlər;

**2.4.2. bələdiyyə dövri nəşrləri –** təsisçiləri bələdiyyə qurumları olan və həftədə azı bir dəfə çıxan dövri nəşrlər;

**2.4.3. özəl dövri nəşrlər –** təsisçiləri ayrı-ayrı fiziki və ya hüquqi şəxslər olan dövri nəşrlər.

**2.5.** İctimai televiziya və radio yayımçıları və dövlət dövri nəşrləri tərəfindən seçkiqabağı təşviqat üçün efir vaxtı və ya nəşr yeri ödənişsiz və ödənişli əsaslarla ayrılır. Bələdiyyə və özəl televiziya və radio yayımçıları, dövri nəşrləri tərəfindən seçkiqabağı təşviqat materiallarının yerləşdirilməsi isə yalnız ödənişli əsaslarla həyata keçirilir.

## 3. Televiziya və radio yayımçılarının kanallarında efir vaxtının, habelə dövri nəşrlərdə dərc üçün yerin ödənişsiz əsaslarla ayrılması qaydaları və şərtləri

**3.1.** Seçki dairələrinin 60-dan çoxunda namizədləri qeydə alınmış siyasi partiyaların, siyasi partiyalar bloklarının proqramları Azərbaycan Respublikası ərazisinin yarısına, yaxud yarısından çox hissəsinə yayımlanan ictimai televiziya və radio yayımçılarının kanallarında pulsuz efir vaxtı, habelə Azərbaycan Respublikası ərazisinin yarısına, yaxud yarısından çox hissəsinə yayılan, həftədə azı bir dəfə çıxan dövlət dövri nəşrlərində pulsuz dərc üçün müvafiq yer almaq hüququ vardır.

**3.2.** Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası (bundan sonra – Mərkəzi Seçki Komissiyası) bu Təlimatın 3.1-ci bəndində göstərilmiş qurumların siyahısını seçkilərin təyin edilməsi haqqında sərəncamın rəsmi dərc edilməsi günündən 20 gündən gec olmayaraq həmin qurumların və ya Azərbaycan Respublikası Audiovizual Şurasının, habelə Azərbaycan Mətbuat Şurasının təqdimatına əsasən dərc edir.

**3.3.** Bu Təlimatın 3.2-ci bəndində göstərilmiş televiziya və radio yayımçılarının təqdim etdikləri ödənişsiz efir vaxtı seçki dairələrinin 60-dan çoxunda namizədi qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları arasında eyni şərtlər əsasında bərabər həcmdə bölünür.

**3.4.** Seçkiqabağı təşviqat materiallarının efirəçıxma vaxtı və tarixinin müəyyən edilməsi məqsədilə seçkiqabağı təşviqat müddəti başlanandan sonra bir həftə ərzində seçki dairələrinin 60-dan çoxunda namizədi qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları tərəfindən verilən ərizəyə

əsasən onların arasında püşkatma keçirilir.

**3.5.** Püşkatma Mərkəzi Seçki Komissiyasının yaratdığı püşkatma komissiyası tərəfindən təşkil edilir və bu Təlimatın 3.1-ci bəndində göstərilən televiziya və radio yayımçıları nümayəndələrinin iştirakı ilə həyata keçirilir. Püşkatmanın keçirilməsinin yeri və vaxtı haqqında püşkatmanı keçirən orqanın məlumatı püşkatmanın keçirilməsinə ən azı 24 saat qalmış dərc edilir.

**3.6.** Püşkatmanın keçirilməsində müvafiq seçki komissiyasının üzvləri, qeydə alınmış namizədlər, namizədləri qeydə alınmış siyasi partiyaların, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələri, yaxud vəkil edilmiş şəxsləri, qanunvericiliklə müəyyən olunmuş qaydada müşahidəçi statusu almış Azərbaycan Respublikasının vətəndaşları, beynəlxalq müşahidəçilər və media subyektlərinin nümayəndələri iştirak edə bilərlər.

**3.7.** Püşkatma, püşkatma komissiyası tərəfindən elan edilən gündə, saatda və yerdə seçki dairələrinin 60-dan çoxunda namizədləri qeydə alınmış və efir vaxtından istifadə etmək üçün müraciət etmiş siyasi partiyalar, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələrinin arasında, bu Təlimatın 3.6-cı bəndində göstərilən subyektlərin iştirakı ilə keçirilir.

**3.8.** Püşkatma üçün aralarında püşkatma keçirilən subyektlərin sayına müvafiq miqdarda eyni ölçülü, bir-birindən fərqlənməyən dördkünc kağız parçaları hazırlanır. Həmin kağız parçaları efir vaxtı və tarixi göstərilməklə nömrələnir, dörd yerə bükülür və qutuya salınaraq qarışdırılır. Sonra aralarında püşkatma keçirilən subyektlərin nümayəndələrinin hər biri (ümumi razılaşma əsasında bu hərəkətin yerinə yetirilməsi digər şəxslərə də həvalə edilə bilər) növbə ilə qutudan bir büküm çıxararaq orada yazılmış nömrəni elan edir.

**3.9.** Püşkatmanın nəticələri püşkatma komissiyası tərəfindən tərtib edilən müvafiq protokolla rəsmiləşdirilir. Əlavə olaraq püşkatma komissiyası efir vaxtının verilməsi üçün cədvəl tərtib edir. Həmin cədvəl Mərkəzi Seçki Komissiyası tərəfindən Azərbaycan Respublikası ərazisinin yarısına, yaxud yarısından çox hissəsinə yayılan dövlət dövri nəşrlərində dərc edilir (Təlimata 1 və 2 saylı əlavələr).

**3.10.** Bu Təlimatın 3.1-ci bəndində göstərilən dövri nəşrlərdə dərc üçün yerin ayrılması ilə bağlı püşkatma dövri nəşrlərin redaksiyalarında təşkil edilən püşkatma komissiyası tərəfindən seçkiqabağı təşviqatın başlandığı gündə bu Təlimatın 3.8-ci bəndində göstərilən qaydada keçirilir (dövri nəşrlərin redaksiyalarında püşkatma keçirilərkən püşkatma üçün hazırlanan dördkünc kağız parçalarında dövri nəşrlərdə ödənişsiz dərc yerinin həcmi və tarixi göstərilir).

Dövri nəşrlərdə püşkatmanın keçirilməsində bu Təlimatın 3.6-cı bəndində göstərilən şəxslər iştirak edə bilərlər. Püşkatmanın keçirilməsinin yeri və vaxtı haqqında püşkatmanı keçirən orqanın məlumatı püşkatmanın keçirilməsinə ən azı 24 saat qalmış rəsmi dərc edilir. Püşkatmanın nəticələri protokolla rəsmiləşdirilir və cədvəl tərtib olunur (Təlimata 3 saylı əlavə). Həmin cədvəl müvafiq dövri nəşrin redaksiyası tərəfindən dərc edilir.

**3.11.** Azərbaycan Respublikasının ərazisinin yarısına, yaxud yarısından çox hissəsinə yayımlanan ictimai televiziya və radio yayımçılarının seçkiqabağı təşviqat üçün ayırdıqları ödənişsiz efir vaxtının ümumi həcmi həftədə 3 saatdan az olmamalıdır.

**3.12.** Milli Məclisə seçkilərdə iştirak etmək üçün birmandatlı seçki dairələri üzrə qeydə alınmış namizədlərin proqramları Azərbaycan Respublikası ərazisinin yarısından az hissəsində yayımlanan ictimai televiziya və radio yayımçılarında, proqramları Azərbaycan Respublikası ərazisinin yarısına, yaxud yarısından çox hissəsinə yayımlanan ictimai televiziya və radio yayımçılarının müvafiq bölmələrində ödənişsiz efir vaxtı, habelə Azərbaycan Respublikası ərazisinin yarısından az hissəsində yayılan, həftədə azı bir dəfə çıxan dövlət dövri nəşrlərində ödənişsiz dərc üçün müvafiq yer almaq hüququ vardır.

**3.13.** Dairə seçki komissiyası bu Təlimatın 3.12-ci bəndində göstərilmiş ödənişsiz efir vaxtı ayırmış televiziya və radio yayımçılarının və dərc üçün ödənişsiz yer ayırmış dövri nəşrlərin siyahısını Azərbaycan Respublikası Audiovizual Şurasının və Azərbaycan Mətbuat Şurasının təqdimatına əsasən seçkilərin təyin edilməsi haqqında sərəncamın rəsmi dərc edilməsi günündən başlayaraq 30 gündən gec olmamaqla dərc etməlidir.

**3.14.** Bu Təlimatın 3.12-ci bəndində göstərilmiş televiziya və radio yayımçılarının təqdim etdikləri ödənişsiz efir vaxtı qeydə alınmış namizədlər arasında eyni şərtlər əsasında bərabər həcmdə bölünür.

**3.15.** Bu Təlimatın 3.12-ci bəndində göstərilən televiziya və radio yayımçılarında seçkiqabağı təşviqat materiallarının ödənişsiz əsaslarla efirə çıxmasının vaxtı və tarixinin müəyyən edilməsi məqsədilə seçkiqabağı təşviqat müddəti başlanandan sonra bir həftə ərzində Milli Məclisə seçkilərdə birmandatlı seçki dairəsi üzrə qeydə alınmış namizədlər tərəfindən verilən ərizəyə əsasən onların arasında püşkatma keçirilir.

**3.16.** Bu Təlimatın 3.15-ci bəndində nəzərdə tutulan püşkatma müvafiq seçki komissiyasının yaratdığı püşkatma komissiyası tərəfindən təşkil edilir və bu Təlimatın 3.12-ci bəndində göstərilən televiziya və radio yayımçıları nümayəndələrinin iştirakı ilə həyata keçirilir. Püşkatmanın keçirilməsinin yeri və vaxtı haqqında seçki komissiyasının məlumatı püşkatmanın keçirilməsinə ən azı 24 saat qalmış dərc edilir.

**3.17.** Püşkatma, püşkatma komissiyası tərəfindən elan edilən gündə, saatda və yerdə bu Təlimatın 3.8-ci bəndində müəyyən olunmuş qaydada həyata keçirilir. Ödənişsiz efir vaxtının bölgüsü zamanı Seçki Məcəlləsinin 155.2-ci maddəsinin tələbləri nəzərə alınmalıdır. Püşkatmanın keçirilməsi zamanı bu Təlimatın 3.6-cı bəndində göstərilən şəxslər iştirak edə bilər.

**3.18.** Seçki Məcəlləsinin 155.2-ci maddəsinin tələblərinə uyğun ayrılmış efir vaxtını bərabər bölmək üçün keçirilən bu püşkatma bitdikdən sonra püşkatmanın nəticələrinə dair püşkatma komissiyası müvafiq protokol tərtib edir. Əlavə olaraq efir vaxtının verilməsi cədvəli də püşkatma komissiyası tərəfindən tərtib edilərək müvafiq seçki komissiyasına təqdim olunur (Təlimata 1 və 2 saylı əlavələr). Seçki komissiyası həmin cədvəli Azərbaycan

Respublikası ərazisinin yarısına, yaxud yarısından az hissəsinə yayılan dövlət dövri nəşrlərində dərc etdirir.

**3.19.** Azərbaycan Respublikası ərazisinin yarısından az hissəsində yayılan, həftədə azı bir dəfə çıxan dövlət dövri nəşrlərində dərc üçün yerin ayrılması ilə bağlı püşkatma dövri nəşrlərin redaksiyasında həmin redaksiyaların yaratdığı püşkatma komissiyası tərəfindən seçkiqabağı təşviqatın başlandığı gün, bu Təlimatın 3.10-cu bəndində göstərilən qaydada keçirilir. Püşkatmanın keçirilməsinin yeri və vaxtı haqqında püşkatmanı keçirən orqanın məlumatı püşkatmanın keçirilməsinə ən azı 24 saat qalmış rəsmi dərc edilir. Püşkatmada bu Təlimatın 3.6-cı bəndində göstərilən şəxslər iştirak edə bilər. Püşkatmanın nəticələri protokolla rəsmiləşdirilir və cədvəl tərtib olunur (Təlimata 3 saylı əlavə). Bu cədvəl müvafiq dövri nəşrin redaksiyası tərəfindən dərc edilir.

**3.20.** Azərbaycan Respublikasının ərazisinin yarısından azına yayımlanan ictimai televiziya və radio yayımçılarının ödənişsiz əsaslarla seçkiqabağı təşviqat üçün ayırdığı efir vaxtı həftədə 1 saat 30 dəqiqədən az ola bilməz. Həmin təşkilatların verilişlərinin ümumi vaxtı gün ərzində 2 saatdan az olarsa, göstərilən efir vaxtı verilişlərin ümumi həcminin 1/4 hissəsindən az olmamalıdır.

**3.21.** Bu Təlimatın 3.1 və 3.12-ci bəndlərində göstərilən televiziya və radio yayımçılarının ayırdıqları ödənişsiz efir vaxtının ümumi həcminin 1/3 hissəsi qeydə alınmış namizədlərə, birmandatlı seçki dairələrinin 60-dan çoxunda namizədləri qeydə alınmış siyasi partiyalara, siyasi partiyaların bloklarına müzakirələrin, "dəyirmi masa"ların, digər bu cür təşviqat tədbirlərinin keçirilməsi üçün ayrılır.

**3.22.** Bu Təlimatın 3.1 və 3.12-ci bəndlərində göstərilən dövlət dövri nəşrlərinin redaksiyalarının hər birinin qeydə alınmış namizədə, namizədləri qeydə alınmış siyasi partiyaya, siyasi partiyalar blokuna pulsuz ayırdığı nəşr səhifələrinin həcmi seçkiqabağı təşviqat dövründə həftəlik nəşr səhifələrinin ümumi həcminin azı 10 faizini təşkil etməlidir.

**3.23.** Qeydə alınmış namizədlərin, namizədləri qeydə alınmış siyasi partiyaların, siyasi partiyaların bloklarının seçkiqabağı təşviqatı üçün televiziya və radio yayımçılarında ödənişsiz efir vaxtının və dövri nəşrlərdə dərc üçün yerin ödənişsiz əsaslarla ayrılmasına çəkilən xərclər həmin qurumlara dövlət büdcəsindən ödənilir.

## 4. Televiziya və radio yayımçılarının kanallarında ödənişli efir vaxtının və dövri nəşrlərdə dərc üçün ödənişli yerin ayrılması qaydaları və şərtləri

**4.1.** Bələdiyyə və özəl televiziya və radio yayımçıları, dövri nəşrləri qeydə alınmış namizədlərə, namizədləri qeydə alınmış siyasi partiyalara, siyasi partiyaların bloklarına müqavilə əsasında ödənişli efir vaxtı və ya ödənişli dərc üçün yer ayıra bilərlər. İctimai televiziya və radio yayımçıları və dövlət dövri nəşrləri qeydə alınmış namizədlərə, namizədləri qeydə alınmış siyasi

partiyalara, siyasi partiyalar bloklarına müqavilə əsasında ödənişli efir vaxtı və dövri nəşrlərin redaksiyaları öz səhifələrində ödənişli əsaslarla yer ayırmaq üçün ehtiyatda əlavə dərc yeri saxlamalıdırlar.

**4.2.** Seçkiqabağı təşviqat materiallarının yayımlanması və ya dərci özəl və bələdiyyə televiziya və radio yayımçıları və dövri nəşrlər üçün könüllülük prinsipinə əsaslanmalıdır. Həmin qurumları seçkiqabağı təşviqatda iştiraka məcbur etmək yolverilməzdir.

**4.3.** Bu Təlimatın 4.1-ci bəndində göstərilmiş televiziya və radio yayımçılarının və dövri nəşrlərin ayırdıqları ödənişli efir vaxtının və dərc üçün yerin dəyərinin ödənilməsinin əsasları, şərtləri və məbləği müvafiq olaraq bütün qeydə alınmış namizədlər, namizədləri qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları üçün bərabər müəyyən edilir. Əgər özəl televiziya və radio yayımçıları və dövri nəşrlər seçkiqabağı təşviqatda iştirak etməyə razılıq vermişlərsə, seçkiqabağı təşviqat materiallarının efirəverilmə və ya dərcolunma şərtləri bütün qeydə alınmış namizədlər, namizədləri qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları üçün eyni olmalıdır.

**Qeyd:** *bu qaydalar qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları tərəfindən təsis olunan dövri nəşrlərə şamil edilmir.*

**4.4.** Seçkiqabağı təşviqat üçün ayrılan ödənişli efir vaxtı və dövri nəşrlərdə ayrılan ödənişli yer barədə müvafiq televiziya və radio yayımçıları və dövri nəşrlərin redaksiyaları seçkiqabağı təşviqat subyektlərinə, Mərkəzi Seçki Komissiyasına və ya dairə seçki komissiyasına bildiriş göndərir, həmçinin ayrılan efir vaxtının və dərc üçün ayrılmış yerin ödənişinin əsasları, məbləği və şərtləri barədə seçkilərin təyin edilməsi haqqında sərəncamın rəsmi dərcindən 30 gündən gec olmayaraq məlumat dərc edir. Təşviqat subyektləri müəyyənləşdirildikdən sonra bu məlumat qanunla müəyyən edilmiş qaydada onlara da göndərilməlidir. Ödənişli efir vaxtının ayrılması reklam haqqında qanunvericiliyə uyğun olaraq həyata keçirilir.

**4.5.** Televiziya və radio yayımçılarının ödənişli əsaslarla ayırdığı efir vaxtının ümumi həcmi pulsuz efir vaxtının ümumi həcmindən az və həmin həcmdən iki dəfə artıq ola bilməz. Dövlət dövri nəşrlərinin səhifələrində ödənişli dərc üçün ayrılmış yerin ümumi həcmi ayrılan pulsuz nəşr səhifələrinin həcmindən az olmamalıdır. Bələdiyyə və özəl televiziya və radio yayımçılarının və dövri nəşrlərin ödənişli seçkiqabağı təşviqat məqsədilə efir vaxtı və dərc üçün yerin ayrılması həmin təşkilatların öz mülahizəsinə əsasən həll edilir.

**4.6.** Qeydə alınmış hər bir namizəd, qeydə alınmış namizədlərinin sayından asılı olmayaraq namizədləri qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları üçün efir vaxtından və dərc üçün ayrılmış yerdən ödənişli əsaslarla istifadə norması həmin vaxtın və yerin ümumi həcminin aralarında püşkatma keçirilməsi nəzərdə tutulan subyektlərin sayına bölünməsi ilə müəyyənləşdirilir.

**4.7.** Seçkiqabağı təşviqat materiallarının efirə çıxarılması tarixi və vaxtı, yaxud dərc olunması tarixi qeydə alınmış namizədlərin və ya onların səlahiyyətli nümayəndələrinin, vəkil edilmiş şəxslərinin, namizədləri qeydə

alınmış siyasi partiyaların, siyasi partiyaların bloklarının səlahiyyətli nümayəndələrinin və ya vəkil edilmiş şəxslərinin təqdim etdikləri bildiriş əsasında püşkatma subyektlərinin arasında keçirilən püşkatma nəticəsində televiziya və radio yayımçıları və dövri nəşrlərin redaksiyaları tərəfindən müəyyən edilir.

**4.8.** Ödənişli əsaslarla efir vaxtının və dövri nəşrlərdə yerin ayrılması üçün püşkatma müvafiq olaraq bu Təlimatın 3.8-ci və 3.10-cu bəndlərində göstərilən qaydada keçirilir. Həmin püşkatma televiziya və radio yayımçılarının kanallarında və dövri nəşr redaksiyalarında yaradılan püşkatma komissiyası tərəfindən təşkil olunur və həyata keçirilir. Püşkatmanın keçirilməsinin yeri və vaxtı haqqında püşkatmanı keçirən orqanın məlumatı püşkatmanın keçirilməsinə azı 24 saat qalmış dərc edilir. Televiziya və radio yayımçılarının kanallarında püşkatma seçkiqabağı təşviqat başlandıqdan sonra 1 həftə müddətində, dövri nəşr redaksiyalarında isə seçkiqabağı təşviqatın başlandığı gün keçirilir. Püşkatma keçirilərkən bu Təlimatın 3.6-cı bəndində göstərilən şəxslər də iştirak edə bilər.

**4.9.** Püşkatma keçirildikdən sonra efir vaxtı və dövri nəşrdə dərc üçün ayrılmış yer bağlanmış müqavilə əsasında təqdim edilir.

**4.9.1.** Müqavilədə aşağıdakılar nəzərdə tutulur:

**4.9.1.1.** seçkiqabağı təşviqatın forması;

**4.9.1.2.** efirəçıxma vaxtı, tarixi və ya dərcetmə tarixi;

**4.9.1.3.** verilən efir vaxtının müddəti, dərc üçün ayrılan yerin həcmi, ödəniş qaydası və həcmi;

**4.9.1.4.** aparıcı jurnalistin müsahibə, mətbuat konfransı, açıq müzakirə, debat, “dəyirmi masa” kimi seçkiqabağı təşviqat növlərində iştirak forması və şərtləri.

**Qeyd:** *bu Təlimatın 4.9.1.1-4.9.1.4-cü bəndlərində göstərilənlərdən əlavə seçkiqabağı təşviqatın qanunauyğun həyata keçməsini təmin etmək məqsədilə müqavilə ilə digər şərtlər də müəyyən edilə bilər.*

**4.9.2.** Püşkatma keçirildikdən sonra efir vaxtından istifadədən və dövri nəşrlərin səhifəsində ayrılmış yerdən imtina edilərsə, bu zaman efirə çıxmağa 2 gün qalmış müvafiq televiziya və radio yayımçısına, dərcetmə gününə isə azı 5 gün qalmış bu barədə müvafiq dövri nəşrin redaksiyasına qeydə alınmış namizəd, namizədləri qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları tərəfindən məlumat verilməlidir.

**4.10.** Efir vaxtının haqqı və dövri nəşr səhifələrində ayrılmış yerin dəyəri seçki fondu vəsaitləri hesabına ödənilməlidir. Qeydə alınmış namizəd, namizədi qeydə alınmış siyasi partiya, siyasi partiyaların bloku efir vaxtının və dövri nəşr səhifələrində ayrılmış yerin ödənilməsi üçün vəsaitin tam həcmdə köçürülməsi barədə ödəniş tapşırığını efir vaxtının verilməsi gününə ən geci 48 saat, təşviqat materiallarının isə dərcetmə gününə ən geci 2 gün qalmış müvafiq banka təqdim etməlidir. Bank pul vəsaitini gecikdirmədən köçürməlidir. Nağdsız ödənişin müddəti 2 bank günündən çox olmamalıdır.

**4.11.** Müqavilə şərtləri yerinə yetirilərək ayrılmış efir vaxtından istifadə edildikdən sonra verilişin adı və efirəçıxma vaxtı göstərilməklə, efir vaxtından istifadə edilməsi barədə akt tərtib olunur.

**4.12.** Bu Təlimatın 4.10.1-ci bəndində göstərilən müqavilə ləğv edildikdə, habelə bu Təlimatın 4.10.2-ci bəndində göstərilən hallarda, televiziya və radio yayımçıları sərbəstləşmiş efir vaxtından, habelə dövri nəşr redaksiyaları sərbəstləşmiş nəşr yerindən seçkiqabağı təşviqat məqsədləri üçün istifadə edə bilməzlər.

## 5. Seçkiqabağı təşviqat üçün televiziya və radio yayımçılarının ayırdığı ödənişsiz və ya ödənişli efir vaxtı, habelə dövri nəşr səhifələrində ayrılmış ödənişsiz və ya ödənişli yerin qeydiyyatı

**5.1.** Seçkiqabağı təşviqat üçün televiziya və radio yayımçılarının ayırdığı ödənişsiz və ya ödənişli efir vaxtı və ya dövri nəşr səhifələrində ayrılmış ödənişsiz və ödənişli yer Seçki Məcəlləsinin 79-cu maddəsinin tələblərinə əsasən müvafiq televiziya və radio yayımçısının və dövri nəşrin redaksiyasında qeydə alınmalıdır. Qeydiyyat ayrıca kitab formasında aparılmalı və orada hər bir qeydə alınmış namizəd, namizədləri qeydə alınmış siyasi partiya, yaxud siyasi partiyaların bloku üçün yerin ayrılması tarixi, dərc olunmuş təşviqat materialının forması göstərilməlidir. Qeydiyyat barəsində səsvermə gününə ən azı 5 gün qalmış və səsvermə günündən ən tezi 5 gün sonra namizədləri qeydə alınmış siyasi partiya, siyasi partiyaların bloku ilə əlaqədar Mərkəzi Seçki Komissiyasına, birmandatlı seçki dairəsində qeydə alınmış namizədlərlə əlaqədar isə müvafiq dairə seçki komissiyasına məlumat verilməlidir.

## 6. Seçkiqabağı təşviqatın aparılması ilə bağlı məhdudiyyətlər

**6.1.** Aşağıdakı şəxslərə seçkiqabağı təşviqat aparmaq qadağandır:
**6.1.1.** xarici dövlətlərə və xarici hüquqi şəxslərə;
**6.1.2.** xarici vətəndaşlara;
**6.1.3.** vətəndaşlığı olmayan şəxslərə;
**6.1.4.** 18 yaşına çatmamış vətəndaşlara;
**6.1.5.** seçkilərin təyin edilməsi haqqında sərəncamın rəsmi dərc edildiyi günə olan vəziyyətə görə Azərbaycan Respublikasının hüquqi şəxslərinin nizamnamə kapitalında xarici dövlətlərin, xarici hüquqi şəxslərin, xarici vətəndaşların və ya vətəndaşlığı olmayan şəxslərin iştirak (mülkiyyət) payı 30 faizdən çox olarsa, Azərbaycan Respublikasının hüquqi şəxslərinə;
**6.1.6.** beynəlxalq təşkilatlara və beynəlxalq ictimai hərəkatlara;
**6.1.7.** dövlət hakimiyyət orqanlarına və bələdiyyə qurumlarına;
**6.1.8.** dövlət, bələdiyyə təşkilatlarına və idarələrinə;
**6.1.9.** seçkilərin təyin edilməsi haqqında sərəncamın rəsmi dərc edildiyi günə olan vəziyyətə görə nizamnamə kapitalında dövlətin və ya bələdiyyənin iştirak payı 30 faizdən artıq olan hüquqi şəxslərə;
**6.1.10.** hərbi hissələrə;
**6.1.11.** xeyriyyə təşkilatlarına, dini birliklərə, idarələrə, təşkilatlara;
**6.1.12.** öz vəzifələrini və ya xidməti vəzifələrini yerinə yetirərkən, həm də

vəzifəsindən və ya xidməti üstünlüyündən istifadə etməklə dövlət orqanlarında, idarələrində, təşkilatlarında və ya bələdiyyə orqanlarında və təşkilatlarında vəzifədə olan şəxslərə;

**6.1.13.** dövlət və bələdiyyə qulluqçularına;

**6.1.14.** hərbi qulluqçulara;

**6.1.15.** seçki komissiyalarına, seçki komissiyasının həlledici səs hüquqlu üzvlərinə və digər vəzifəli şəxslərinə;

**6.1.16.** dövlətə məxsus televiziya və radio yayımçılarına.

**6.2.** Qeydə alınmış namizədin, namizədi qeydə alınmış siyasi partiyaların, siyasi partiyalar bloklarının televiziya və radio yayımçıları vasitəsilə seçkiqabağı təşviqat aparılarkən aşağıdakı hərəkətlərin edilməsi qadağandır:

**6.2.1.** təşviqat materialının verilməsini malların, işlərin və xidmətlərin reklamları ilə dayandırmaq;

**6.2.2.** televiziya və radio yayımçısının kanallarında seçkiqabağı təşviqat materialının verilməsini digər televiziya və radio proqramlarının verilməsi ilə dayandırmaq;

**6.2.3.** seçkiqabağı tədbirlərin keçirilməsi barədə məlumatlar üçün ödəniş tələb etmək;

**6.2.4.** seçkiqabağı təşviqat materiallarında hakimiyyətin zorla ələ keçirilməsinə, konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və dövlətin ərazi bütövlüyünün pozulmasına çağırışların, vətəndaşların şərəf və ləyaqətlərini təhqir edən mülahizələrin yerləşdirilməsi (bu qadağa Azərbaycan Respublikası Konstitusiyasının 47-ci maddəsinə uyğun tətbiq edilməlidir);

**6.2.5.** sosial, irqi, milli, dini ədavət və düşmənçilik yaradan təşviqat formasından istifadə;

**6.2.6.** əqli mülkiyyət haqqında qanunvericiliyi pozan təşviqatın aparılması;

**6.2.7.** *Çıxarılmışdır.*

**6.3.** Seçkiqabağı təşviqat aparmaq üçün şərait yaratmış qurumlar və seçkiqabağı təşviqatın digər subyektləri müqavilə ilə öz üzərilərinə götürdükləri öhdəlikləri yerinə yetirməyə borcludurlar. Efir vaxtından və dövri nəşrlərdən istifadə zamanı təşviqat prosesinin subyektləri müqavilədə müəyyənləşdirilmiş şərtləri pozduqda, televiziya və radio yayımçıları efir vaxtının verilməsi və dövri nəşrlər dərc üçün yerin ayrılması haqqında müqavilənin ləğvi üçün məhkəməyə müraciət edə bilərlər.

## 7. Seçkiqabağı təşviqatla bağlı seçki qanunvericiliyinin tələblərinə riayət edilməsinə nəzarət

**7.1**. Seçki Məcəlləsində, habelə bu Təlimatda dövri nəşrlər vasitəsilə seçkiqabağı təşviqat haqqında müəyyən edilmiş qaydalara riayət edilməsi üzərində nəzarəti Mərkəzi Seçki Komissiyasının nəzdində Seçki Məcəlləsinin 74.5-ci maddəsinə əsasən yaradılan və əsasən jurnalistlərdən ibarət olan Mətbuat qrupu həyata keçirir.

**7.2.** Bu Təlimatda göstərilən şərtlərə əməl olunmaması qanunla müəyyən olunmuş qaydada məsuliyyət yaradır.

*Təlimata 1 saylı əlavə*

**Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə**

__________________________________________________ tərəfindən
*(ictimai televiziya və radio yayımçısının adı)*

qeydə alınmış namizədlər (və ya birmandatlı seçki dairələrinin 60-dan çoxunda namizədləri qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları) üçün ayrılmış ödənişsiz efir vaxtının bölgüsü

## CƏDVƏLİ

### Radioda "dəyirmi masa"

| Həftənin günləri | Efirəçıxma tarixi | Efirəçıxma vaxtı |
|---|---|---|
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |

### Televiziyada "dəyirmi masa"

| **Həftənin günləri** | **Efirəçıxma tarixi** | **Efirəçıxma vaxtı** |
|---|---|---|
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |

**Ayrılmış efir vaxtı istifadəçilərinin masa ətrafında yerləşdirilməsi və aparıcı jurnalist tərəfindən "dəyirmi masa"nın aparılma ardıcıllığı**

| Namizədin (siyasi partiyanın səlahiyyətli nümayəndəsinin, vəkil edilmiş şəxsinin) soyadı, adı, atasının adı | Aparıcı | | |
|---|---|---|---|
| | sağda | solda | qarşıda |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |

**Qeyd:** *bu cədvəl püşkatma komissiyasının üzvləri tərəfindən imzalanır.*

*Təlimata 2 saylı əlavə*

**Seçkiqabağı təşviqat üçün ayrılmış efir vaxtının bölünməsi üzrə püşkatmanın nəticələri haqqında**
**C Ə D V Ə L**

| Sıra sayı | Efir vaxtı ayrılmış subyektin adı | Püşkatma bükümünün nömrəsi | Ayrılmış efir vaxtının həcmi | Efir vaxtının tarixi və vaxtı |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |

**Qeyd:** *bu cədvəl püşkatma komissiyasının üzvləri tərəfindən imzalanır.*

*Təlimata 3 saylı əlavə*

**Seçkiqabağı təşviqat zamanı dövri nəşrlərdə dərc üçün ayrılmış yerin bölünməsi üzrə püşkatmanın nəticələri haqqında**

**C Ə D V Ə L**

| Sıra sayı | Dərc üçün yer ayırmış dövri nəşrlərin adı | Püşkatma bükümünün nömrəsi | Dərc üçün ayrılmış yerin həcmi | Dərc olunma tarixi |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |

**Qeyd:** *bu cədvəl püşkatma komissiyasının üzvləri tərəfindən imzalanır.*